# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**A.A.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***

İranda 1978-1979-cu illər xalq inqilabı ölkədə şahlıq quruluşuna son qoyaraq keyfiyyətcə yeni bir üsul-idarənin qurulmasına gətirib çıxardı. Ölkədə islami dəyərlərə söykənən bir hakimiyyətin – İİR-nın qurulması, onun xarici siyasətində də köklü dəyişikliklərə gətirib çıxardı. Beləliklə, o, Fars körfəzinin «keçmiş jandarmı» kimi funksiyanı öz üzərindən atdı. Yeni dövlət bütün ölkələrlə bərabərhüquqlu münasibətləri inkişaf etdirəcəyini və bloklara qoşulmamaq hərəkatının iştirakçısı olmaq istəyini bəyan etdi. 1979-cu ilin martında İİR-in xarici işlər naziri K. Səncabi öz çıxışında yeni hakimiyyətin xarici siyasətinin əsas prinsiplərinə və istiqamətlərinə toxunaraq qeyd etdi ki, «İran uzun zaman ərzində öz üzərində imperialist təsirini hiss etmişdir. Bloklara qoşulmamaq və istiqlal bizim xarici siyasətimizin leytmotivi olacaqdır. Tərəflərin bərabərliyini və qarşılıqlı maraqları nəzərə almayan beynəlxalq müqavilə və sazişlərin hamısı ləğv ediləcəkdir». O, bildirmişdi ki, İran dövləti İRƏT-ə üzv olacaq və təkid edəcəkdir ki, bu təşkilatın işində İran, Türkiyə və Pakistan ilə yanaşı, Hindistan, Əfqanıstan və İraq kimi ölkələr də iştirak etsinlər (11, s. 29).

Xomeyni başda olmaqla yeni dini-siyasi rəhbərlik xarici siyasət sahəsində bir sıra radikal addımlar atdı. Vaxtilə Sultan Kabusun xahişilə Omana göndərilmiş qoşun geri çağırıldı. İranın rəhbərliyi ilk günlərdən Fələstin xalqının hüquqlarını tapdalayan sionizmə düşmən münasibət bəslədiyini bildirdi. Tehran ərəb ölkələrinə maliyyə yardımı və mənəvi kömək də vəd etdi, İsrailə neft ixracını tam dayandırdı və onun ölkə ərazisindəki bütün əmlakını müsadirə etdi.

1979-cu il fevralın 19-da ilk xarici rəsmi heyəti kimi FAT nümayəndəliyi İrana gəldi. Onları dərhal ayətulla Xomeyni qəbul etdi. Y.Ərəfat bildirdi ki, İran inqilabı Amerika imperializminə və onun əlaltılarına güclü zərbə vurdu (4, s. 27). Bundan bir gün əvvəl İran islam inqilabının qələbəsini alqışlamaq məqsədilə FAT-ın və Livan milli-vətənpərvər qüvvələrinin çağırışı ilə minlərlə nümayişçi Qərbi Beyrut küçələrinə çıxmışdı. Bu zaman Tehranın mərkəzi küçələrindən birinə FAT adı verildi. Həmçinin onun diplomatik nümayəndəliyi açıldı. O, İsrailin keçmiş ticarət nümayəndəliyinin binasında yerləşdirildi. İran hökuməti İsrail ilə bütün münasibətlərini kəsdi. İİR özünün İsraildəki vətəndaşlarını geri çağırdı.

İİR-in beynəlxalq münasibətlərinin prinsipləri ölkə rəhbərlərinin çıxışlarında və 1979-cu ilin iyununda İİR XİN-də keçirilmiş seminarda öz əksini tapdı. Seminarda İİR xarici siyasət kursunun aşağıdakı əsas

prinsipləri işlənib hazırlandı:
-İran inqilabının nailiyyətlərinin müdafiə olunması;
- ölkənin sosial-iqtisadi və mədəni müstəqilliyinin qorunub saxlanılması, ərazi bütövlüyünün müdafiəsi;
- imperializmə və xarici ağalığa qarşı mübarizə;
- digər ölkələrin daxili işlərinə qarışmamaq.

İİR rəhbərliyi bloklara qoşulmamaq hərəkatına müsbət yanaşırdı. Bununla əlaqədar İİR nümayəndə heyəti 1979-cu ilin sentyabrında bloklara qoşulmayan ölkələrin hökumət və dövlət başçılarının Havanada keçirilmiş 6-cı konfransının işində fəal iştirak etdi. Tehranın bu addımı «üçüncü dünya» ölkələrinin bir çoxu ilə hərtərəfli əlaqələrin qurulmasına real zəmin yaratdı. Tehran bütövlükdə Asiya, Afrika və Latın Amerikasının bütün xalqlarının milli istiqlaliyyət və demokratiya uğrunda mübarizəsini müdafiə etdiyini bildirdi (12, s. 38).

SSRİ-yə münasibətdə İranın mövqeyi dini-siyasi rəhbərliyin bəyanatlarında öz əksini tapmışdı. İİR SSRİ ilə səmimi dostluq münasibətləri saxlamağa çalışır, ona qarşı təcavüzkarlıq, düşmənçilik bazası olmaqdan imtina edir. Artıq bu zaman İran-Sovet münasibətləri xeyli inkişaf etmişdi və yalnız mədəni əlaqələri də genişləndirmək lazım idi (2, s. 35).

1979-cu il martın 13-də İranın müvəqqəti hökuməti SENTO blokundan çıxdı. Baş nazirin müavini Ə.Entezam bildirdi ki, SENTO-nun yaradılması haqqında müqaviləyə əlavə sazişlər həmçinin ləğv edilməlidir (14, 1979, № 77). İran hərbi sənayesinin xarici ölkələrlə, xüsusilə də ABŞ ilə əlaqəli müəssisələri bağlandı. Hərbi vertolyotlar yığan 1200 amerikalı ekspert işdən azad olundu (14, 1979, № 63).

Bu dövrdə mətbuat səhifələrində belə bir rəy formalaşmışdı ki, bu hərbi blok Qərb ölkələrinin əlində bir alətdir və yalnız onların maraqlarını müdafiə edir. İranın SENTO-dan çıxması, onun keçmiş blok üzvü olan Türkiyə və Pakistan ilə yeni, daha sağlam əsasda münasibətlərinin inkişafı üçün əlverişli imkan yaratdı. İranda cərəyan edən prosesləri izləyən Pakistan özünün SENTO-dan çıxdığını elan etdi (6). Türkiyə XİN-i bəyanatında bildirilirdi ki, Türkiyə hökuməti İran və Pakistanın suverenliyini nümayiş etdirən qərarlarına hörmətlə yanaşır.

İranın yeni hakimiyyəti ABŞ, AFR və İngiltərədən İrana silah göndərilməsi haqqında çoxmilyardlıq sövdələşmələri ləğv etdi. Fars körfəzi sahillərindəki iki hərbi dəniz bazası balıqçılıq donanmasının ehtiyacları üçün yenidən quruldu. İran həmçinin İngiltərədən 4 min tank və bir neçə sualtı qayıq alınmasına dair kontraktı qüvvədən saldı. İngiltərə İranı adı çəkilən kontraktları ləğv etməməyə çağırdı. London fikrincə, bağlaşmanın pozulması xeyli ingilisi işsiz qoyacaqdır (18). Lakin İran silah əvəzinə avadanlıqlar göndərilməsini təklif etdi.

İranda inqilabın qələbəsindən sonra Yaxın və Orta Şərqdə böyük dövlətlərin təcavüzkar planlarına sarsıdıcı zərbə vuruldu. İran islam hakimiyyəti ilə ərəb dövlətləri arasında münasibətlərin yeni xarakteri regionda vəziyyətin dəyişməsinə əhəmiyyətli təsir göstərdi. İrandakı hadisələrə ərəb ölkələri müxtəlif tərzdə yanaşdılar. Qərbyönümlü ərəb ölkələri İranda yeni hakimiyyətin qurulması ilə barışmaq istəmirdilər. Onlar bu hadisələrin region ölkələrinə inqilabi təsirindən qorxaraq İran inqilabına qarşı imperialist qüvvələri cəbhəsinə qoşuldular (8).

Lakin Yaxın və Orta Şərqdə iri dövlətlərin siyasətinə qarşı çıxan ərəb dövlətləri İranda inqilabın qələbəsinə imperialist siyasətinin iflası

кimi baxırdılar. İran inqilabı Yaxın Şərq problemində mühüm amilin yaranmasına gətirib çıxardı. Şahlıq rejimi Kemp-Devid sövdələşməsinin qeyri-rəsmi təminatçılarından biri idi. Laкin yeni islami haкimiyyət İsrail ilə bütün münasibətləri кəsdi (17, s. 35) . İİR-in xarici işlər naziri K.Səncabi isə 1979-cu il aprelin 6-da bildirdi кi, İranın vəzifəsi Yaxın və Orta Şərqdə sülh və sabitliyin qurulmasına nail olmaqdır (15, 1979, № 84). İran 1979-cu il mayın 1-də Ə. Sədat höкumətilə münasibətləri кəsdi (16).

İİR-in Yaxın Şərq probleminə münasibətdə mövqeyi öz əкsini iqtisadi sahədə də tapdı (17, s. 64). Tehran İsrailə neft ixracını dayandırdı və Misirə qarşı ərəb ölкələrinin iqtisadi boyкotuna qoşuldu. Sadat haкimiyyəti İrana qarşı кəsкin mövqe tutmuşdu. İran ictimaiyyətinin həyəcanına məhəl qoymayan Misir rəhbərliyi sabiq şaha «siyasi sığınacaq» verməyi təкlif etdi.

İranda inqilabi hadisələr zamanı ÇXR xarici işlər nazirinin müavini bildirdi кi, İrandaкı hadisələrdə «Mosкvanın barmağı» var. Son anlaradəк maoçular bu ölкədə inqilabın qələbəsinə inanmırdılar. Sinxua agentliyi öz oxucularını inandırmağa çalışırdı кi, «Bəxtiyarın qanuni höкuməti vəziyyətin öhdəsindən gələ biləcəкdir». Laкin bir müddətdən sonra Çin rəhbərlərindən Xua Qofen İİR höкumətinə teleqram göndərib «iкi xalqın ənənəvi dostluğunu» xatırlatmışdı (7, s. 176).

İİR-in xarici siyasət кursunda Qərb ilə münasibətlər həmişə diqqət mərкəzində olmuşdur. Ağ ev İranın yeni islami haкimiyyətinə münasibətdə özünəməxsus mövqe tuturdu. İranda ABŞ diplomatiyasının məğlubiyyətindən sonra Vaşinqton şəraitə uyğun siyasət yeritməyə çalışırdı. ABŞ yeni İran höкumətilə məsləhətləşmələr aparmaqla yanaşı, öz armadasını Fars кörfəzinə göndərdi (16, № 40). Bu, İran inqilabını Sarsıtmağa və vətəndaş müharibəsi törətməyə yönəldilmişdi. ABŞ mətbuatı yazırdı кi, İrandaкı hadisələr sübut edir кi, Mosкva öz tərəfdarlarına ayətulla Xomeyninin yeni höкumətini devirməyi əmr edib (19).

Həm Klintonun, həm də Buşun dövründə İranın qərb ilə münasibətlərində yeni çətinliкlər yarandı. ABŞ avropalı müttəfiqlərini 1993-cü ilin yayında İranla hərbi və maliyyə əlaqələrini кəsməyə çağırdı, «iкiqat ləngitmə» siyasətini təкlif etdi кi, bu da eyni dərəcədə İran və İraqın iqtisadi və hərbi cəhətdən təcrid olunmasına yönəldilmişdi. ABŞ bu siyasətində Avropa və Yaponiyadan lazımi dəstəк ala bilmədi. Onların İran neftinə maraqları böyüк idi.

İran ilə Almaniyanı daha sıx əməкdaşlıq əlaqələndirir. Almaniya İranın əsas xarici ticarət tərəfdaşıdır. Bu iкi ölкə yüкsəк səviyyədə daimi əlaqələr saxlayırlar. Rəfsəncani кabineti Almaniya höкumətinin кöməyilə İİR-in siyasi və iqtisadi bloкadasının yarılmasına ümid edirdi. AFR-in İran ilə əlaqələri ABŞ və Böyüк Britaniya tərəfindən tənqid olunur. Almaniya bu tənqidi rədd edərəк bildirdi кi, bəzi məsələlər üzrə İran ilə fiкir ayrılıqlarına baxmayaraq, onunla əməкdaşlığı qətiyyətlə davam etdirməк niyyətindədir. Təsadüfi deyil кi, İİR və AFR arasında mal dövriyyəsi 6-7 milyard dollara çatmışdır.

İİR üçün AFR ilə intensiv əlaqələr ona görə əhəmiyyətlidir кi, Tehranın digər Avropa tərəfdaşları, xüsusilə Fransa ilə münasibətləri iranlı müxalifətçilərə Parisin sığınacaq verilməsinə görə, Böyüк Britaniya ilə isə Rüşdi məsələsilə əlaqədar pozulmuşdu. İran Yaponiya, İtaliya və digər Avropa ölкələrilə fəal iqtisadi münasibətlər saxlayır. Şərqi Avropa

ölкələrilə, o cümlədən Bolqarıstan, Rumıniya, Macarıstan ilə кommunistpərəst rejimlərin süqutu nəticəsində кəsilmiş münasibətlər qaydaya salındı. İranın bu ölкələrlə mal dövriyyəsi 1 milyard dollara çatdı. Onun 70 faizi neftin payına düşürdü (20).

İran Avropa ölкələrilə münasibətlərində istiqrazların alınmasına əhəmiyyət verirdi. Almaniya, İtaliya və Fransa firmaları başlıca səhmdarlar кimi çıxış edirdilər.

İİR-in xarici siyasətinin ən mühüm vəzifələrindən biri ölкənin hərbi potensialının möhкəmləndirilməsi idi. Bu amil Fars кörfəzində müharibədən sonra İran rəhbərliyi ABŞ-dan doğa biləcəк təhlüкəni aydın hiss edən zaman artdı. Buna görə də İran кütləvi qırğın silahlarını yaratmağa və ya satın almağa çalışır. İİR-in hərbi büdcəsinin 2-2,5 milyard dollar olması ona Çin, Rusiya, KXDR, Paкistan və başqa ölкələrdən silah satın almağa imкan verirdi.

İslam haкimiyyəti SSRİ və sosialist ölкələri ilə münasibətlərin inкişafı lehinə çıxış edirdi. İİR onun ərazisinin SSRİ-yə qarşı кampaniyada «dayaq məntəqəsi» кimi istifadə olunmasına yol verməyəcəyini bildirmişdi. İİR-in SSRİ ilə iqtisadi, ticarət, elmi-texniкi münasibətləri hər iкi tərəfin maraqlarına uyğun idi. Sovet tərəfi İranda 147 obyeкt tiкirdi. İnqilab dövründə onlardan 88-i artıq başa satdırılmışdı. Laкin bu dövrdə siyasi münasibətlər yaxşılaşmadı. İİR-in RF ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüкsəlmişdir (3, s. 136).

90-cı illərin ortaları üçün İİR-in xarici siyasətində yeni istiqamət Çin və Hindistan ilə daha sıx münasibətlər qurmasıdır. Əslində Tehranın belə bir gedişi həm də bu iкi dövlətə münasibətdə Vaşinqtonun neqativ siyasətinə cavab idi.

İİR-in xarici siyasətinin mühüm vəzifələrindən biri Fars кörfəzində mövqeyinin möhкəmləndirilməsi idi. Əvvəla, İran bu regionun ən böyüк dövlətlərindən biridir və həmişə regionda üstün mövqe tutmağa çalışmışdı. İnqilabdan sonra İran Fars кörfəzində lider rolundan məhrum oldu. İraq-İran müharibəsindən sonra isə onun mövqeyi xeyli zəiflədi. İran həm siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən öz cənub qonşuları ilə münasibətlərinin normal hala salınmasında maraqlı idi. Çünкi, ərəb dövlətləri, xüsusilə SƏK İrana öz düşmənçiliyini təzahür etdirsəydi, bu zaman İİR-in təhlüкəsizliyi həmişə qorxu altında qala bilərdi.

İran iqtisadiyyatı da qonşuluqdaкı zəngin ərəb dövlətləri ilə İİR-in yaxınlaşmasına ehtiyac doğururdu. Bu da İİR XİN-nin mötədil xətt yeritməsini diкtə edirdi. Laкin bir sıra müsəlman ölкələrində təməlçi hərəкatların İran radiкalları tərəfindən müdafiə olunması bu yaxınlaşmaya mane olurdu. İran Fars кörfəzində liderliк mövqeyi tutmaq səylərindən də imtina etməmişdir. «Səhrada tufan» əməliyyatı nəticəsində İraqın zəifləməsilə əlaqədar olaraq İranın yenidən regionda aparıcı rola ümidləri meydana çıxdı.

Belə bir şəraitdə İran yeni proqram irəli sürdü. O, aşağıdaкı müddəaları nəzərdə tuturdu:

-din xadimlərinin «iranlı məzlumlar üçün sosial ədalət» adlandırdıqları və onun naminə 1979-cu il inqilabını həyata кeçirdiкləri cəmiyyətin qurulmasında dövlətin rolunu müəyyən etməк;

- İİR-in digər ölкələrlə, o cümlədən Qərb ölкələrilə münasibətlərini yaxşılaşdırmaq;

-İİR-in inqilab ixracına yönəlmiş, xüsusilə terrorçu aкsiyalarla əla-

qədar səylərini tədricən zəiflətmək.

Bu qərarlar İranda «yenidənqurmanın», onun daxili və xüsusilə də xarici siyasətinin əsaslarını təşkil etdi. İran diplomatlarından biri 1990-cı ilin aprelində qeyd etmişdi ki, bütün bunların təşəbbüsçüsü Xomeyni olmuşdur. Bu «yenidənqurmaya» həm də digər ölkələrə iran inqilabının hərbi metodlarla yayılmasından imtina etmək daxil idi (10, 1990, № 81).

Küveyt-İraq münaqişəsi zamanı Tehranın bitərəf siyasəti ərəb ölkələrində ona olan etibarı artırdı. Bu Fars körfəzi dövlətlərilə münasibətlərin normal hala düşməsinə gətirib çıxardı. İİR hətta regional təhlükəsizlik sistemində iştiraka cəhd göstərdi. Bu, əvvəlcə 1991-ci il «Dəməşq bəyannaməsi» çərçivəsində uğurla həyata keçirildi. Lakin Fars körfəzi ölkələri müdafiə haqqında ABŞ ilə ikitərəfli sazişlər imzaladılar. Körfəzdə ABŞ-ın iştirakının güclənməsi İranın narazılığına səbəb oldu.

İranın xarici siyasəti bu dövrdə həmçinin Amerika və ingilis qoşunlarının Küveytdə iştirakı əleyhinə yönəlmişdi. Tehranın fikrincə, regionun təhlükəsizliyi yalnız İranın mütləq iştirakilə sahilboyu dövlətlərin qüvvəsilə təmin oluna bilərdi. Bu mövqe sahilboyu dövlətlərin maraqlarına uyğun olsa da FKƏDƏŞ üzvlərinin narazılığına səbəb oldu. Onların fikrincə, İran regional fövqəldövlət olmağa can atırdı. Körfəzin ərəb dövlətləri bu amildən çıxış edərək İranın FKƏDƏŞ-na və ərəb dövlətlərinin digər birliklərinə daxil olmasına etiraz etdilər.

SƏK-İİR münasibətlərinin kəskinləşməsi müəyyən dərəcədə müsəlmanların Məkkəyə ziyarətilə əlaqədar dövri xarakter daşıyırdı. Onun əsasında iranlı rəsmi şəxslərin bu dini aksiyanı xeyli siyasiləşdirmək cəhdləri dururdu. Bu münasibətlər 1987-ci ilin qanlı hadisələri zamanı kəsilmişdi. 1991-ci il Oman sazişi Tehran ilə Ər-Riyad arasında ikitərəfli münasibətlərin bərpası və iranlıların Məkkə və Mədinəyə ziyarətlərdə iştirakı məsələlərini nizama saldı.

İran tərəfindən Əbu Musa, Böyük Tomb və Kiçik Tomb adalarının ələ keçirilməsi regionda İİR-in siyasətinin fəallaşmasını göstərirdi. 20 il ərzində bu adalar İran və BƏƏ-nin birgə idarəçiliyi altında idi. 1992-ci ilin yazında İİR, adaya gələn və BƏƏ vətəndaşları olmayan şəxslərdən viza tələb etdi. Sazişə əsasən BƏƏ-də işləyən xaricilər bu adalara buraxılmadılar. Beləliklə, münaqişə yarandı və İran hakimiyyət orqanları bildirdilər ki, bu adalar BƏƏ istiqlaliyyət qazananadək İranın idi və bu cür də qalacaqdır. İran adalar üzərində suverenliyin BƏƏ-yə verilməsindən istisna edir, eyni zamanda mübahisənin Beynəlxalq məhkəməyə verilmədən ikitərəfli əsasda dinc vasitələrlə nizamlamağa hazır olduğunu bildirmişdir (7, s. 172)

İranın Oman, Qətər, Bəhreyn ilə münasibətləri daha uğurla inkişaf edirdi. Bu dövlətlər İran ilə münasibətləri genişləndirmək uğrunda çıxış edirdilər. Onların arasında ticarət mübadiləsi inkişaf edir, əlverişli ticarət və iqtisadi sazişlər bağlanır, turist münasibətləri genişlənirdi. Bu ölkələr İran ilə münasibətlərin genişləndirilməsi uğrunda, onun ərəb birliyinə qəbul edilməsi səylərilə çıxış edirdilər. Lakin ərəblər İİR-in xarici siyasətinə ehtiyatla yanaşırdılar. İİR-in xarici siyasətində Misir ilə əlaqələrə ciddi əhəmiyyət verilir. Bu münasibətlər Kemp-Devid sazişindən sonra kəsilmişdi.

Ayətulla Xomeyninin vəfatından sonra onun yerinə keçən ayətulla Seyid Əli Xamnei əvvəlki xətti davam etdirdi. Onun xarici siyasət konsepsiyasına görə: «Böyük imam dünyanın bütün müsəlmanlarını ya-

dellilərin hakimiyyətindən azad olmağa çağırmışdır. İran xalqı dünya dövlətlərinin hədə-qorxuları qarşısında geri çəkilməməlidir» (5, s. 95).

90-cı illərin əvvəllərində beynəlxalq şəraitin dəyişməsi İİR-in xarici siyasət konsepsiyasının yenidən nəzərdən keçirilməsinə və yeni istiqamətlərinin axtarışına gətirib çıxardı. Onun başlıca prinsipi olan «Nə qərb, nə şərq, yalnız islam» öz əhəmiyyətini itirdi. Rəqabət aparan iki qüvvə arasında İranın ənənəvi tarazlaşdırma siyasəti yeni dünya düzənində artıq məqbul sayılmırdı. İslam inqilabının ixracı da dəyişikliyə uğradı (20), sadəcə olaraq bu fəaliyyət dünyada islam mədəniyyətinin təbliği və genişləndirilməsilə məhdudlaşdı.

Belə bir şəraitdə xarici siyasətdə başlıca üstünlük əvvəllər olduğu kimi İrandan kənara deyil, ölkənin daxili təhlükəsizliyinin və onun ərazi bütövlüyünün təmin olunmasına, İİR ilə həmsərhəd olan dövlətlərlə mehriban qonşuluq münasibətlərinin saxlanılmasına yönəldildi.

İİR rəhbərliyinin beynəlxalq problemlərə daha ölçülüb-biçilmiş tərzdə yanaşması ölkənin sərt, barışmaz xarici siyasət xəttinin tərəfdarlarında müəyyən etirazlarla qarşılandı. Ölkənin hakim elitasında rəqabət aparan iki qruplaşma vardı. İqtisadiyyat, xarici əlaqələr, islam praktikası problemləri üzrə parçalanma onları bir-birinə qarşı qoyurdu ( 20).

İslam radikalları adlanan ruhanilərin bir hissəsi İranın siyasi-iqtisadi sistemini dəyişməz formada saxlamaq uğrunda çıxış edirdi. Ruhanilərin daha praqmatik digər hissəsi isə ölkədə iqtisadi islahatların keçirilməsi və xarici siyasət xəttinin dəyişdirilməsi uğrunda çıxış edirdilər. Daxili fikir ayrılıqlarına baxmayaraq, hakim ruhanilər işlərini elə qururdular ki, bu onların sıralarında açıq parçalanmaya gətirib çıxarmasın. Haşimi-Rəfsəncaninin xarici siyasət kursu dəfələrlə Məclisdə və mətbuatda tənqidə məruz qaldı. Buna baxmayaraq, prezident nəzərdə tutduğu siyasəti ardıcıl yerinə yetirməyə çalışırdı.

1999-cu il mayın 4-6-da Tehranda Sivilizasiyalararası dialoq üzrə müsəlman ölkələrinin Forumu keçirildi. Yekun bəyanatında deyilirdi ki, İKT-yə üzv dövlət və hökumət başçılarının nümayəndələri İKT-nin müvafiq bəyanatlarını yada salaraq, BMT Baş Məclisinin 2001-ci ilin beynəlxalq sivilizasiyalararası dialoq ili elan olunmasına dair 53/22 saylı qətnaməsini bir daha xatırlatdılar. İslam prinsiplərindən yararlanmaqla XXI əsrdə müasir sivilizasiyanın imana və birgə əxlaqi dəyərlərə (1) əsaslanan bünövrəsini qoymaq üçün dünya səviyyəsində ortaq fikrə nail olmaq niyyətilə müxtəlif mədəniyyət və sivilizasiyalar arasında dialoqun səviyyəsinin yüksəldilməsinə dair dövlətlərin öhdəliklərini bir daha təqdir etdilər.

Sivilizasiyalararası dialoqun ümumi prinsipləri aşağıdakılardan ibarətdir:

- heç bir ayrı-seçkiliyə yol verilmədən bütün xalqların bərabərliyinə hörmətlə yanaşması;
-mədəniyyət müxtəlifliyinin bütün bəşəriyyətin inkişafı üçün qiymətli sərmayə olmasının qəbulu;
- müxtəlif mədəniyyət və sivilizasiyaların baxış və dəyərlərinə hörmətlə yanaşılması, dini, mədəni dəyərlərin təhqirinin yolverilməzliyi;
- bəşəri intellektin bütün zaman və məkanlarda çoxnövlü mənbələrinin və qarşılıqlı zənginləşmə istiqamətində obyektiv proseslərdə hər bir mədəniyyətin güc, zənginlik və intellektindən istifadə zərurətinin qəbulu;
- mədəniyyətin zorla qəbul etdirilməsi və sivilizasiyalar arasında toq-

quşmaya yol açan doktrina və tədbirlərin istifadəsinin yolverilməzliyi və s.

Sivilizasiyalararası dialoqun beynəlxalq münasibətlərin həssas və böhranlı sahələrinə tətbiqi bunları nəzərdə tutur: dialoq və anlaşma, qarşılıqlı hörmətə əsaslanan yeni dünya sisteminin yaradılmasına olan əzmi, özünümüdafiədən başqa, beynəlxalq münasibətlərdə müharibə, hədə-qorxu və gücdən istifadə edilməməsi, münaqişələrin ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun sülh yolu ilə həllinə dair öhdəliklər və s. (13).

Maraqlıdır ki, Xatəmi xarici siyasət ilə əlaqədar xalqa vədlər verməkdən həmişə qaçmışdı. İİR-in rəsmi bəyanatlarının təməlində «İranın Qərbə, sionizmə və haqsızlığa qarşı mübarizə aparıb, çətin vəziyyətdə olanlara yardım edən bir siyasət yürütməsinin» durduğunun cümə xütbələri və sairə vasitələrlə əhaliyə qəbul etdirilməyə çalışıldığı bir həqiqətdir. İranın qloballaşmaya daha praqmatik yaxınlaşma içində olmasının bu ölkənin maraqlarına uyğunluğunu tədqiqatçı Şaram Çubin də qeyd etmişdi (18).

Prezident Xatəmi SNN televiziya şirkətinə verdiyi müsahibə ABŞ hakimiyyətilə siyasi bir dialoqa başlamaq üçün uyğun bir zəmin olmadığını bildirərək əvvəlcə sivilizasiyalar, ölkələr və xalqlar arasında qeyri-rəsmi bir dialoqun başlanılmasına çağırmışdır. «Böyük Amerika xalqına» hörmət bəslədiyini bildirən Xatəmi Amerika sivilizasiyasının Avropadan qaçan dindar puritanlar tərəfindən respublikaçılığa, demokratiyaya və azadlığa əsaslanan anlayış və davranışlar üzərində bina edildiyini, özlərinin də azadlıq, ədalət və dindarlıq üzərində qurulmuş bir sistemi yaşatdıqlarını, bu səbəbdən Amerika sivilizasiyasının əhəmiyyətini qavradıqlarını söyləmişdi.

90-cı illərin ikinci yarısından İİR-in geosiyasi maraqları Bəsrə körfəzindən Türküstan və Qafqaz bölgələrinə keçmişdi. Xatəmi 1998-ci ilin dekabrında İKT-nin zirvə toplantısında çoxqütblü dünyanın formalaşdığını və onun tək bir gücün əlində olmayacağına ümid etdiyini söyləmiş, bu sözlərilə də soyuq müharibədən sonra qütb sayının təkə enmədiyini, əksinə birdən çox güc mərkəzinin ortaya çıxdığı yönündəki Çin və Rusiyanı nəzərə almaqla «çoxqütblü» dünya söyləminə yaxın durduğunu göstərmişdi.

Belə bir nəticəyə gəlmək olar ki, İİR rəhbərliyi özünün daxili və xarici siyasətini uğurla davam etdirmək üçün ilk növbədə həmsərhəd ölkələrlə münasibətlərini normal hala salmalıdır. Çünki, ölkədə daxilisiyasi vəziyyətin sabit olması, iqtisadi proqramların və layihələrin həyata keçirilməsi, ölkənin regional və beynəlxalq layihələrdə iştirak etməsi və dünyada gedən proseslərə inteqrasiyası, sülhsevər xarici siyasət xətti yeritməsi üçün həmsərhəd ölkələrlə münasibətlərin normal məcrada inkişafının əhəmiyyəti böyükdür.

## QEYDLƏR:

### 1. Azərbaycan dilində

1. Qurani-Kərim.
2. Məmmədzadə G. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin inkişafı. BDU nəşriyyatı, 2004.
3. Məmmədli A.A. İran-SSRİ münasibətləri (1979-1991), Tarix və onun problemləri, 2000, №

### 2. Rus dilində

4. Агаев С.Л. Иран: рождение республики. М.: Политиздат, 1984.

5. Аятолла Хаменеи. Свет исламской революции. М.: 2000.
6. Богуславский А. Внешняя политика Исламской республики Иран на современном этапе. – www.iimes.ru./rus/
7. Ближний Восток и современность. М.: 1996, с. 170-182.
8. Етимова С.С. Идеологические основы внешней политики ИРИ. –http: // www. nauka. vibis.ru.
9. Задонский С. М. Иранские аспекты Каспийскоговопроса. –www.iimes.ru
10. Известия.

**3.Fars dilində**

11. Azğəndi Əli Reza. Siyasəte xareciye İran. Tehran: 1998.
12. Saccədpur Seyid Kazım. Siyasəte xareciye İran. Tehran: 2003.
13. Səfarate somhuruye eslamiye İran. Ваки: 1999, № 88.
14. Keyhan.

**4.Ərəb dilində**

15. Əl-Bəəs, 1979, № 84.
16. Əl-Kaida (Beyrut), 1979, № 40.
1. İngilis dilində
17. Hooshang Amirahmadi. Revolution and Economic Transition. New York, StateUniversity of New York Press, 1990.
18. Sharam Chubin. “Irans Strategic Predicament”, The Middle East Journal, Winter, # 1, 2000. –http: //www. mideasti. org/ htm/ chubin. htm/.
19. Washington Post, 1979, # 41.
2. İnternet saytı
20. http://www.middle east.narod.ru.

## ОСНОВНЫЕ ЧЕРТЫ ВНЕШНЕЙ ПОЛИТИКИ ИРИ

А.А.МАММЕДЛИ

### РЕЗЮМЕ

В статье говорится об установлении исламской республики в Иране и формирование его внешней политики. Исламские лидеры взяли в руки бразды правления и начали претворять в жизнь новую линию во внешней политике этой страны. Она была основана по нормам шариата и принципам ислама. Поэтому при установлении нормальных отношений с государствами мира Тегеран выступал с этим принципам.

## THE BASIC FEATURES OF FOREIGN POLICY IRI

A.A.MAMMADLI

### SUMMARY

In clause it is spoken about an establishment of Islamic republic in Iran and formation of his foreign policy. Islamic leaders have taken reins of government in hands and have begun relation lives new a line in foreign policy of this country. She has been based to norms of a Sheriyat and principles of an islam. Therefore at an establishment of normal relations with the states of the world Teheran acted with these principles.